UOT 327

KƏMALƏ RUİNTƏN
Siyasi elmlər üzrə fəlsəfə doktoru,
Bakı Slavyan Universitetinin dosenti
https://orcid.org/0009-0006-1888-5240
k.ruintan@rambler.ru

ELMİ DİPLOMATİYA VƏ DİPLOMATİYANIN İNNOVATİV XÜSUSİYYƏTLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/110/98-104

Müasir dövrdə mövcud problemlər və fürsətlər, demək olar ki, elm və texnologiyanın inkişafı ilə birbaşa bağlıdır və problemlərin həlli yalnız dövlətlərin və elmi birliklərin birgə fəaliyyəti ilə mümkündür. Bununla əlaqədar olaraq, XXI əsrdə "elmi diplomatiya" anlayışı meydana çıxmışdır. "Elmi diplomatiya" ilk olaraq akademik dairələrdə beynəlxalq elmi əməkdaşlıq olaraq yaradılmış, uzun müddət ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafı üçün vasitə rolunu oynamışdır. Sonralar onun tətbiqi məsələləri genişlənərək beynəlxalq elmi əməkdaşlıqdan kənara çıxmış, birbaşa yaxud dolayısı yolla diplomatik məqsədlərə xidmət etməyə başlamışdır. "Elmi diplomatiya" və "innovativ diplomatiya" anlayışları bir-biri ilə sıx bağlıdırlar. Belə ki, elm və yeni informasiya-kommunikasiya, həmçinin digər rəqəmsal texnologiyaların diplomatik proseslərə tətbiqi ilə diplomatiya innovativ xarakter alaraq öz ənənəvi metodlarından fərqli yeni xüsusiyyətlər əldə etmiş, onun yeni kreativ növləri və innovativ metodları formalaşmışdır. İnnovativ diplomatiya da öz növbəsində, elmi diplomatiyanın inkişafına töhfə verir və onun bütün ölçülərini əhatə edir. Göstərilənləri nəzərə alaraq, tarixi və nəzəri, transdissiplinar yanaşma, araşdırma və analiz metodlarından istifadə edilərək məqalədə "elmi diplomatiya" və "innovativ diplomatiya" anlayışları, onlar arasında əlaqə nəzərdən keçirilir.

Açar sözlər: elmi diplomatiya, innovasiya, innovativ diplomatiya.

Giriş. Zamanla elm və texnologiya cəmiyyətin bütün sahələrinə sirayət edərək həmin sahələri daha da təkmilləşdirmiş, onları müasir dövrün tələblərinə və çağrışlarına uyğunlaşdırmışdır. Eyni zamanda, müasir cəmiyyətdə mövcud problemlər və fürsətlər də demək olar ki, elm və texnologiyanın inkişafı ilə birbaşa bağlıdır. Buna görə də beynəlxalq problemlərin qarşısının alınması, həmçinin onların həlli yollarının araşdırılması dövlətlərin qarşılıqlı əməkdaşlığını və elmin bu əməkdaşlığa cəlb edilməsini tələb edir. Bu da öz növbəsində «elmi diplomatiya» anlayışını formalaşdırır. Uzun müddət ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafı üçün elm sahəsində əməkdaşlığı ifadə etmiş elmi diplomatiyanın bu gün tətbiqi məsələləri xeyli genişlənərək beynəlxalq elmi əməkdaşlıqdan kənara çıxır, birbaşa və ya dolayısı yolla diplomatik məqsədlərə xidmət edir. Elmi diplomatiya, eyni zamanda, innovativ əhəmiyyət daşıyır. Belə ki, elm və texnologiyanın diplomatiyaya tətbiq edilməsi ilə o, innovativ xarakter alır, öz ənənəvi metodlarından fərqlənən yeni xüsusiyyətlər əldə edir.

Elmi diplomatiya: yaranması və anlayışı. Elm və diplomatiya beynəlxalq münasibətlər tarixi boyunca bir-biri ilə sıx əlaqədə olaraq qarşılıqlı inkişaf ediblər. Bununla belə, elmi diplomatiyanın yaranma tarixi London Kral Cəmiyyətinin (Royal society)[*] təşəbbüsü ilə 1899-cu ildə Beynəlxalq Akademiyalar Assosiasiyasının (BAA – ing. International Association of Academies) təsis edildiyi vaxt hesab olunur. Avropanın 24 akademiyasını birləşdirən BAA əsas iki istiqamət - təbiət elmləri və humanitar elmlər olmaqla 31 elmi bölmə üzrə fəaliyyət göstərirdi [16, s.5-7]. Bu fakta əsaslanaraq

[*] *Royal Society (rəsmi adı: Təbiət Biliklərinin Təkmilləşdirilməsi üzrə London Kral Cəmiyyəti - Royal Society of London for the Improvement of Natural Knowledge) dünyanın ən qədim və ən nüfuzlu elmi müəssisələrindən biri, Böyük Britaniyanın Milli Elmlər Akademiyası. 1660-cı ildə yaradılıb və Britaniya siyasətinə böyük təsir göstərib. London Kral Cəmiyyəti 1723-cü ildə Xarici əlaqələr üzrə birinci katibi vəzifəsi təsis edib, onun işi müxtəlif ölkələrin alimləri ilə yazışmalar həyata keçirmək olmuşdur. Kral Cəmiyyətinin missiyası elmdəki nailiyyətləri tanımaq, təbliğ etmək və dəstəkləmək, elmin inkişafını və bəşəriyyətin rifahı naminə istifadəsini təşviq etməkdir* [17, s.90; 2].

demək olar ki, elmi diplomatiya ilk olaraq akademik dairələrdə beynəlxalq elmi əməkdaşlıq olaraq yaradılmışdır.

Lakin qloballaşma proseslərinin təsiri ilə elm və texnologiya qarşısında geniş perspektivlər açılmış və elmin xarici siyasətə və beynəlxalq əlaqələrə inteqrasiyası baş vermişdir. Uzun müddət ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafına xidmət etmiş elmi diplomatiyanın son onillərdə anlayışı və tətbiqi məsələləri elm və texnologiyanın inkişafı və təsiri ilə xeyli genişlənmişdir. Yəni, elm və texnologiya müasir cəmiyyətlər qarşısında duran bir çox problemlərin yaranmasında təkanverici amil olaraq çıxış edir, yaxud həmin problemlərin həlli elm və texnologiyanın istifadəsi ilə mümkün görünür. Eyni zamanda, qlobal çağırışlara qarşı müvafiq cavabların axtarılması və onların həlli müxtəlif milli dövlətlərin və elmi birliklərin eyni vaxtda birgə fəaliyyətini tələb edir [4]. Elmin diplomatiyaya inteqrasiyası diplomatiyaya qeyri-dövlət subyektlərinin daha çox cəlb edilməsinə və onların əhəmiyyətinin artmasına gətirib çıxarır [19, s.6].

Göstərilənlərə uyğun olaraq, XXI srdə"elmi diplomatiya" bir anlayış olaraq meydana çıxıb. 2000-ci illərin əvvəllərindən elmi diplomatiya - elm, texnologiya və innovasiya, ali təhsil və beynəlxalq münasibətlər sahələrini birləşdirərək fəal inkişaf etməyə başlayıb və beynəlxalq ictimaiyyətin müzakirə predmetinə çevrilib. Diskurs istirakçıları hesab edirlər ki, dövrün aktual qlobal çağırışlarının həlli yollarını məhz elmi diplomatiyanı (yəni, məqsədyönlü beynəlxalq elmi əməkdaşlığı) inkişaf etdirmklə tapmaq mümkündür. Eyni zamanda, elmi diplomatiyanın inkişaf etdirilməsi ilə ixtisaslı diplomatları beynəlxalq elmi fəaliyyət metodlarına uyğunlaşdırmaq, akademik tədqiqatçıları diplomatik fəaliyyətə cəlb etmək, ortaq elmi dəyərlərə və ümumi maraqlara əsaslanaraq xarici ictimaiyyətin rəğbətini qazanmaq, bu yolla ənənəvi diplomatiyada islahatlara nail olmaq nəzərdə tutulurdu [5].

İlk olaraq, 2008-ci ildə Amerika Elmin İnkişafı Assosiasiyası (AAAS[*]) öz Mərkəzini yaratmaqla elmi diplomatiya sahəsində rəsmi fəaliyyətə başlayıb. Həmin vaxt elmi ictimaiyyətin bəzi nümayəndələri "diplomatiya" və "elm" anlayışlarının birləşdirilməsini dəstəkləmirdilər. Onlar belə düşünürdülər ki "diplomatiya" diqqəti "elm"dən yayındıracaq və onu zəiflədəcək. Bununla belə, həmin dövrdən keçən müddət ərzində "elmi diplomatiya" anlayışı bütün dünyada qəbul edildi və ondan geniş şəkildə istifadə olunmağa başladı [12].

2009-cu ilin 1-2 iyun tarixində AAAS və London Kral Cəmiyyəti tərəfindən "Elmi diplomatiyanın yeni sərhədləri" mövzusuna birgə elmi-praktik konfrans keçirildi. Burada tarixi və müasir nümunələr əsasında elmin xarici siyasət məqsədlərinə necə töhfə verə biləcəyi araşdırıldı. 2010-cu ildə konfransın dərc edilmiş nəticələrində "elmi diplomatiya"ya konkret tərif verilməsə də onun elm, texnologiya və innovasayaya üç ölçüdə fayda verəcəyi müəyyənləşdirildi. Bunlar:

1) diplomatiyada elm (*Science in diplomacy*) – xarici siyasət məqsədlərinin formalaşdırılmasına elmin köməyi;

2) elm üçün diplomatiya (*Diplomacy for science*) – beynəlxalq elmi əməkdaşlığa diplomatik yardım;

3) diplomatiya üçün elm (*Science for diplomacy*) – beynəlxalq əlaqələrin yaxşılaşdırılması məqsədilə elmi əməkdaşlıqdan istifadədir [11].

Beləliklə, elmi diplomatiya yalnız diplomatiya haqqında elm və beynəlxalq elmi əməkdaşlıq olmaqla məhdudlaşmır, o həm də birbaşa, yaxud dolayı yolla diplomatik məqsədlərə çatmağın mümkün yollarının araşdırılıb müəyyənləşdirilməsinə xidmət edir [13; 14, s.20].

Getdikcə daha çox dövlət ümimi təhdidləri dəyərləndirir, elm və texnologiyanın beynəlmiləlləşdirilməsi imkanlarını araşdırır, elm və xarici siyasətin inteqrasiyası proseslərinə qoşulurlar. Müxtəlif dövlətlərin elmi-texnoloji və innovasiya imkanlarının eyni olmaması, həmçinin fərqli rejimləri onların elmi diplomatiya sahəsində əməkdaşılqla bağlı yanaşmalarının da müxtəlif olmasını şərtləndirir.

[*] *AAAS (The American Association for the Advancement of Science) - Amerika Elmin İnkişafı Assosiasiyası 1848-ci ildə yaradılmış beynəlxalq qeyri-kommersiya təşkilatıdır. Assosiasiyanın əsas məqsədi alimlər arasında əməkdaşlığı təşviq etmək, tədqiqat azadlığını qorumaq, elmi məsuliyyəti təşviq etmək və bütün bəşəriyyətin rifahı naminə təhsili və elmi dəstəkləməkdir. Amerika assosiasiyasının əsas fəaliyyət istiqamətlərindən biri elmi siyasət, diplomatiya, təhsil sistemi və digər sahələrdə təşəbbüslərin həyata keçirilməsi yolu ilə elmin inkişafıdır. AAAS-ın 2008-ci ildə yaradılmış Mərkəzi 2012-ci ildən elmi əməkdaşlıq və xarici siyasətin qovuşduğu siyasi diskurs platforması olan "Science & Diplomacy" adlı hamı üçün açıq olan onlayn jurnal istifadəyə verib* [9; 22, s 42-44].

Bununla belə, elmi diplomatiya sahəsində müzakirələr aparılır və ümumi yanaşmalar formalaşdırılmaqda davam edir. Buna uyğun olaraq, 2018-ci ilin dekabr ayında Aİ-nin layihəsi olan S4D4C* tərəfindən Madrid şəhərində dünyanın müxtəlif ölkələrindən olan ekspertlərin iştirakı ilə elmi diplomatiyanın bu günü və gələcəyini, qlobal çağırışların həllində onun rolunu, Aİ və onun hüdudlarından kənarda elmi diplomatiyanın bütün potensialından istifadə imkanlarını müzakirə etmək məqsədilə "Avropa İttifaqının 2020-ci ildən sonra elmi diplomatiyası" adlı ilk qlobal toplantı təşkil etdi. Müzakirələrin nəticəsi olaraq konfransda iştirak edən yüksək səviyyəli ekspertlər qrupu 2019-cu ilin fevral ayında "Elmi diplomatiya üzrə Madrid Bəyannaməsi" imzaladı. Bəyannaməyə əsasən **elmi diplomatiya** – elmin, texnologiyaların və xarici siyasətin qovuşma nöqtəsində olan təcrübələr məcmusu olaraq qəbul edildi. Bəyannamə, eyni zamanda, elmi diplomatiyanın gələcəyi ilə bağlı ümumi baxışı elan etdi, onun müasir dövrün qlobal çağırışlarının həlli potensialını vurğuladı və bütün dünyada elmi diplomatiyanın inkişaf prinsiplərini müəyyən etdi [13].

"Elmi diplomatiya" özündə həm nəzəri əsasları, həm də konkret praktiki elementləri birləşdirməklə mürəkkəb və çoxmənalı anlayışdır. Bir çox inkişaf etmiş ölkələrin xarici siyasət idarələrinin strukturunda elmi diplomatiyaya cavabdeh olan xüsusi şöbələr var. Təşkilati baxımdan bu, səfirlikdə xüsusi attaşe, elmi müəssisələr, yaxud kifayət qədər müstəqil şöbələr ola bilər [7].

Elm və texnologiyanın xarici siyasətə inteqrasiyası, beynəlxalq proseslərin rəqəmsallaşması diplomatiyaya təsir göstərdi və onun innovativ xarakter alaraq öz ənənəvi metodlarından fərqlənən yeni xüsusiyyətlər əldə etməsinə imkan verdi. Elmi diplomatiyanın getdikcə məlumatlara (verilənlər - data) əsaslanacağı, rəqəmsal olacağı, süni intellekt tərəfindən dəstəklənəcəyi proqnozlaşdırılır. Həmçinin, elmi diplomatiyanın - süni intellekt, kvant hesablamaları, neyrotexnologiya, genomik tibb və rəqəmsal infrastruktur kimi sahələrdə beynəlxalq normaların yaradılması üçün strateji alətə çevirəcəyi labüddür [10, s.92].

İnnovasiya: anlayışı və təsnifatı. "İnnovasiya" sözü latın dilində "innovare" (yenilik etmək) felindən düzəldilmiş "innovationem" sözündən götürülüb, mənası "dəyişmə və ya yenilənmə" deməkdir [24]. "İnnovasiya" anlayışı sosial həyatın bütün sahələrində əhəmiyyətli təkmilləşdirmələrə, tərəqqiyə, yaxud sıçrayışlara səbəb ola biləcək yeni ideyaların, məhsulların, xidmətlərin, proseslərin və metodların yaradılması prosesidir [6]. Qeyd etmək lazımdır ki, "innovasiya" anlayışı ilk olaraq XIX əsrdə mədəniyyətşünaslığa aid elmi tədqiqatlarda meydana çıxıb və bir mədəniyyətin müəyyən elementlərinin digərinə (əsasən də Avropa adətlərinin ənənəvi Asiya və Afrika cəmiyyətlərinə) daxil edilməsini ifadə edirdi. XX əsrin əvvəllərində elmi-texniki tərəqqinin sürətli inkişafı ilə texniki yeniliklər cəmiyyətdə aparıcı rol oynamağa başlayır, buna görə də, uzun müddət innovasiya ilk növbədə texnologiya və istehsal texnikasındakı dəyişikliklərlə əlaqələndirilir. Bu dəyişikliklərin də daha sonra digər – iqtisadi və sosial dəyişikliklərə gətirə biləcəyi düşünülürdü. Lakin sonradan "innovasiya" anlayışı iqtisadiyyatla daha sıx işlədilməyə başlamışdır [20, s.15].

İnnovasiya insanın intellektual və yaradıcı fəaliyyətinin nəticəsidir [23, s.23]. Lakin istənilən yeniliyi, yaxud ixtiranı innovasiya adlandırmaq olmaz. İnnovasiyanın əsas xüsusiyyəti ondan ibarətdir ki, o, əlavə dəyər yaradır və praktiki əhəmiyyətə malikdir. Yəni, yuxarıda qeyd etdiyimiz kimi, əhəmiyyətli təkmilləşdirmələrə, tərəqqiyə, yaxud sıçrayışlara səbəb olan, həyata keçirilməsi ilə prosesin səmərəliliyinin (yaxud məhsulun keyfiyyətinin) artmasını təmin edən yenilikdir [6; 23, s.15; 18]. Bütün yeniliklər, o cümlədən ictimai-siyasi innovasiya onu təşviq edə biləcək konkret sosial mühitdə baş verir [23, s.27]. Hər sahə özünəməxsus innovativ inkişaf xüsusiyyətlərinə malikdir.

İnnovasiyada müəyyən dualizm mövcuddur. Burada innovasiya həm proses, həm də bu prosesin nəticəsi olaraq qəbul edilir [23, s.19]. Birinci halda innovasiya daha geniş mənada - yeni texnologiya-

---

* *S4D4C (Using Science for/in Diplomacy for Addressing Global Challenges - Qlobal Çağırışların Həll edilməsi üçün Diplomatiyada Elmdən İstifadə) - 2018-ci ilin yanvarından 2021-ci ilin aprelinə qədər Aİ-nin xarici siyasət məqsədlərinə və DİM-ə sadiqliyinə kömək etmək üçün bir vasitə kimi elm diplomatiyasını dəstəkləmək məqsədilə həyata keçirilmiş layihədir. Əsas məqsədi Avropanın maraqlarına uyğun olaraq Aİ-nin xarici siyasət məqsədlərinin və xüsusilə qlobal çağırışlar üçün həll yollarının inkişafı naminə cari və gələcək Avropa elmi diplomatiyasını dəstəkləmək idi* [1]. *(DİM – Dayanıqlı İnkişaf Məqsədləri (ing. Sustainable Development Goals (SDGs)) 2015-ci ildə BMT Baş Assambleyası tərəfindən "hamı üçün daha yaxşı və daha dayanıqlı gələcək naminə plan" olaraq hazırlanmış bir-biri ilə əlaqəli 17 məqsəddən ibarət toplu.*

ların işlənib hazırlanması və onların tətbiqi prosesi olaraq nəzərdən keçirilir. Bu yanaşma real idarəetmə təcrübəsində istifadə olunur. İkinci halda isə innovasiya daha dar mənada nəzərdən keçirilir və son nəticəsini, yəni prosesin sonunda əldə edilən nəticəni - yeniliyi nəzərdə tutur. Məsələn, ağıllı robototexnika, süni intellekt və ya neyron şəbəkələri [18].

İnnovasiya müxtəlif xüsusiyyətlərinə görə təsnif edilir. Məsələn, tətbiq sahəsinə görə: sosial, maddi-texniki, iqtisadi, təşkilati-idarəçilik, hüquq, pedoqogika, diplomatiya və s. varislik (davamedicilik) xüsusiyyətinə görə: tamamlayıcı, yəni bu halda yenilik köhnəni sıxışdırıb çıxarmır, onu daha da təkmilləşdirir; - əvəzləyici, yəni özündən əvvəl mövcud olanı sıxışdırıb çıxarır; sıçrayışedici, yəni qlobal prosesləri və insan həyatında əhəmiyyətli sışrayışlara səbəb olur. Miqyasına görə: - qlobal səviyyəsində; - ölkə səviyyəsində; - hər hansı təşkilat çərçivəsində; - müxtəlif sahələr üzrə [18].

İnnovativ diplomatiya: xüsusiyyətləri və növləri. Mürəkkəb proseslərin getdiyi müasir dünyada ənənəvi diplomatik metodlar heç də həmişə meydana çıxan çoxsaylı problemlərin və münaqişələrin həlli üçün yetərli deyil. Buna görə də ən aktual qlobal çağırışların həlli yollarını tapmaq üçün kreativ və innovativ gücdən və metodlardan istifadə etmək zərurəti yaranır. Diplomatiyanın innovativ xarakteri də qlobal geosiyasi arenada milli maraqlara nail olmaq məqsədilə əvvəllər istifadə edilməmiş müxtəlif vasitə və yanaşmalardan istifadəni əks etdirir. Diplomatiyada innovasiya, əsasən, texnologiyanın inkişafı və beynəlxalq proseslərin rəqəmsallaşması ilə bağlıdır. Yəni, diplomatiyada innovasiya yeni informasiya-kommunikasiya və digər rəqəmsal texnologiyaların diplomatik prosesin həyata keçirilməsinə zamanı tətbiqinə əsaslanır. Diplomatiyada təsir subyektlərindən fərqli olaraq, qarşılıqlı təsir metodları daha dəyişkəndir və bu sahədə tətbiq edilən texnoloji yenilik də ilk növbədə həmin metodlara təsir edir. Texnologiya beynəlxalq siyasi proseslərin yerləşdiyi mühitin məkan və zaman xüsusiyyətlərini dəyişmək qabiliyyəti əldə edir və aktorların qlobal məkanda hərəkət sürətini, informasiyanın məsafədən asılı olmayaraq qəbuledilmə və ötürülmə surətini, onun asanlığını və s. amilləri müəyyən edir. Diplomatiyada innovasiya öz tətbiq sahəsinə görə diplomatiya sahəsində baş verir, özündən əvvəlki metod və üsulları sıxışdırıb çıxarmır, tamamlayıcı və təkmilləşdirici xarakter daşıyır. Məsələn, İnternet beynəlxalq mühitin infrastrukturunun keyfiyyət xüsusiyyətlərinə transformativ təsir göstərir, subyektlərin qarşılıqlı əlaqə tərzini və metodunu dəyişdirən həlledici amilə çevrilir [15, s.76]. Diplomatiya həm beynəlxalq, həm də milli qanunlara əsaslandığı üçün öz miqyasina görə hər dörd (qlobal, ölkə, təşkilat, sahəvi) səviyyəni əhatə edə bilər. Yəni, burada innovasiya diplomatiya sahəsini əhatə etməklə həm müəssisə (XİN) səviyyəsində, həm ölkə səviyyəsində, həm də qlobal səviyyədə mümkündür.

Dövlətlər öz xarici siyasət məqsədlərinə çatmaq və öz mövqelərini möhkəmlətmək məqsədilə tarix boyu ən təsirli metodlar yaratmağa və tətbiq etməyə çalışıblar. Dövrümüzdə də ənənəvi diplomatik metodlar getdikcə mürəkkəbləşən xarici siyasətdə effektli nəticə vermədiyi üçün diplomatiyanın "kreativ" növləri və metodları tətbiq edilməyə başlayıb. Bunun nəticəsində, uzun təkamül prosesi keçmiş diplomatiyanın ənənəvi qaydalarından fərqli müxtəlif növləri, o cümlədən kreativ növləri və metodları formalaşıb. Məsələn, iqtisadi diplomatiya; enerji diplomatiyası; atom diplomatiyası: hərbi diplomatiya; regional diplomatiya; paradiplomatiya; şəhər diplomatiyası; telefon (kabel) diplomatiyası; ictimai diplomatiya; kiberdiplomatiya; idman diplomatiyası; tibb diplomatiyası; peyvənd diplomatiyası və s.

XXI əsrdə informasiya texnologiyalarının inkişafı, kiberməkanın və sosial şəbəkələrin rolunun sürətlə artması da dövlətlərin müxtəlif sahələrlə yanaşı xarici siyasət fəaliyyəti üçün yeni reallıqlar yaradıb. Bu gün hər bir xarici siyasət məqsədinin həyata keçirilməsi rəqəmsal diplomatiya vasitəsilə dəstəklənir. Əvvəllər nisbətən "gizli" fəaliyyət sahəsi sayılan diplomatiya informasiya cəmiyyətinin inkişafı sayəsində getdikcə daha çox ictimailəşib, adi vətəndaşlar üçün də daha əlçatan olub. Diplomatiyanın rəqəmsallaşması və yaranmış yeni informasiya mühiti dövlətlər qarşısında xarici siyasətlərini həyata keçirmək üçün yeni imkanlar açıb. Son illərdə datafikasiya[*] və diplomatik fəaliyyətə süni intellektin tətbiqi məsələsi xüsusilə aktuallıq kəsb etməyə başlayıb [21, s.229; 8, s.915]. Buna uyğun olaraq, diplomatiyanın innovativ növləri yaranıb. Məsələn, telediplomatiya, kiberdiplomatiya, şəbəkə diplomatiyası, data (informasiya) diplomatiyası və s.

XX əsr boyu fiziki görüşlər və yazılı sənədlər rəsmi diplomatik danışıqların əsas vasitəsi olaraq qalsa da həmin əsrin sonlarında internetin yaranması diplomatik münasibətlərdə əsaslı dəyişikliklərə

[*] *datafikasiya fiziki obyektlər (insanlar, obyektlər və s.) haqqında rəqəmsal məlumatların əldə edilməsi və istifadəsidir.*

səbəb olub. E-poçt rabitəsi tez bir zamanda diplomatik yazışmalar üçün standart alətə çevrildi və diplomatlara sürətli və "təhlükəsiz" məlumat mübadiləsi vasitələri təklif etdi [3]. Qeyd etmək lazımdır ki, texnologiyalar müəyyən funksiyaları avtomatlaşdırmaq, prosesləri təkmilləşdirmək və komanda daxilində məhsuldarlığı artırmaq üçün zəruri alətlər və texnologiyalarla təmin etmək potensialına malikdirlər. Buna (həmçinin dövrün pondemiya və s. kimi qlobal çağırışlarına) uyğun olaraq, beynəlxalq münasibətlərin subyektləri arasında virtual görüşlər və danışıqlar təşkil edilməyə başladı. Eyni zamanda, rəqəmsal platformalar və sosial media ictimai diplomatiya və qlobal auditoriya ilə əlaqə üçün yeni imkanlar təqdim etdilər. Diplomatlar bu platformalardan məlumat yaymaq, vətəndaşlarla ünsiyyət qurmaq və ölkələrinin xarici siyasətləri haqqında ictimai təsəvvürləri formalaşdırmaq üçün istifadə etməyə başladılar [3].

Nəticə. Tədqiqatdan məlum olur ki, elmi diplomatiya ilk olaraq akademik dairələrdə beynəlxalq elmi əməkdaşlıq olaraq yaradılmış və uzun müddət elm sahəsində əməkdaşlığı ifadə edərək ikitərəfli və çoxtərəfli münasibətlərin inkişafı üçün bir vasitə olmuşdur. Lakin sonralar elmi diplomatiyanın tətbiqi məsələləri genişlənərək beynəlxalq elmi əməkdaşlıqdan kənara çıxmış, birbaşa və ya dolayısı yolla diplomatik məqsədlərə xidmət etməyə başlamışdır.

Elm və texnologiyanın xarici siyasətə inteqrasiyası və beynəlxalq proseslərə qeyri-dövlət subyektlərinin cəlb edilməsi diplomatiyaya təsir göstərmiş, onun innovativ xarakter alaraq öz ənənəvi metodlarından fərqli yeni xüsusiyyətlər əldə etməsinə imkan vermişdir. Diplomatiyanın əsas innovativ xüsusiyyəti yeni informasiya-kommunikasiya və digər rəqəmsal texnologiyaların diplomatik proseslər zamanı tətbiqi ilə bağlıdır. Son illərdə datafikasiya və diplomatik fəaliyyətə süni intellektin tətbiqi məsələlərinin xüsusilə aktuallıq kəsb etməsi ilə diplomatiyanın bir sıra innovativ metod və növləri (şəbəkə diplomatiyası, data (informasiya) diplomatiyası, süni intellekt diplomatiyası, virtual səfirlik, rəqəmsal danışıqlar və s.) yaranmışdır.

Elmi diplomatiya və innovativ diplomatiya bir-biri ilə qarşılıqlı təsirə malikdirlər. Belə ki, innovativ diplomatiya da öz növbəsində, elmi diplomatiyanın inkişafını dəstəkləyir və onun hər üç ölçüsünü əhatə edir. Yəni: 1 - xarici siyasət məqsədlərinin formalaşdırılması və daha da təkmilləşdirilməsi istiqamətində elmi araşdırmalar və alınan nəticələrin tətbiqi metodlarının müəyyənləşdirilməsi, həmçinin texnoloji yeniliklərin diplomatiyada tətbiqi "diplomatiyada elm" ölçülərini əhatə edir; 2 – beynəlxalq münasibətlər sahəsi müxtəlif ölkə alimlərinin və mütəxəssislərinin birgə səyi ilə araşdırılmanı, yaxud tədqiqatların nəticələrinin uyğunlaşdırılmasını tələb etdiyi üçün dövlətlər arasında fikir və təcrübə mübadilələri aparmaq istiqamətində elmi əməkdaşlığı təşviq edir. Bu da öz növbəsində, beynəlxalq elmi əməkdaşlığa diplomatik yardım məsələsini meydana çıxarır və "elm üçün diplomatiya" ölçüsünə uyğundur; 3 - istənilən sahədə əməkdaşlıq dövlətlər arasında münasibətlərin və əlaqələrin yaxşılaşdırılması məqsədi daşıdığı üçün elmi əməkdaşlıq da beynəlxalq əlaqələrin yaxşılaşdırılmasına xidmət edir və "diplomatiya üçün elm" ölçüsunə uyğundur.

ƏDƏBİYYAT

1. About S4D4C URL: https://www.s4d4c.eu/about/ [01.10.2025].
2. About the Royal Society URL: https://royalsociety.org/about-us/ [01.10.2025].
3. Allahverdiyeva N. Virtual diplomacy: digital communication and security in international relations URL:
https://www.academia.edu/122982901/Virtual_diplomacy_Digital_commun%C4%B1cat%C4%B1on_and_security_in_international_relat%C4%B1ons [01.10.2025].
4. Epping E. Lifting the smokescreen of science diplomacy: comparing the political instrumentation of science and innovation centres // Springer Nature Limited. 30.09.2020. URL:
https://doi.org/10.1057/s41599-020-00599-4 [01.10.2025].
5. Flink T. Why Science Diplomacy Needs Evaluative Backing. S4D4C Policy Brief, 2021. URL:
https://www.academia.edu/45139444/Why_science_diplomacy_needs_evaluative_backing [01.10.2025].
6. Innovation: Meaning, Types, Phases and Barriers URL: https://www.geeksforgeeks.org/business-studies/innovation-meaning-types-phases-and-barriers/ [01.10.2025].

7. Leijten Jos. Exploring the future of innovation diplomacy / European Journal of Futures Research, December 2017, 5 (1) DOI:10.1007/s40309-017-0122-8
8. Metin Aksoy, Ahmet Servet Chichek. Redefining diplomacy in the 21st century & examining the characteristics of an ideal diplomat // MANAS Journal of Social Studies 2018. Vol.: 7, No: 3. Pp.907-921
9. Mission and History URL: https://www.aaas.org/mission [01.10.2025].
10. Mustafa Versan. From Cooperation to Contestation: The Normative Turn in Science Diplomacy (2010–2025) (pp.83-95) URL: https://tuba.gov.tr/files/yayinlar/bilim-ve-dusun/TUBA-978-625-6110-39-7_ch08.pdf [01.10.2025].
11. New frontiers in science diplomacy. — London: The Royal Society, 2010 URL: https://royalsociety.org/-/media/policy/publications/2010/4294969468.pdf [01.10.2025].
12. Rush Holt. Scientific Drivers for Diplomacy (06.29.2015) https://www.sciencediplomacy.org/perspective/2015/scientific-drivers-for-diplomacy [01.10.2025].
13. S4D4C. 2019. The Madrid Declaration on Science Diplomacy. Madrid: S4D4C. URL: https://www.s4d4c.eu/s4d4c-1st-global-meeting/the-madrid-declaration-on-science-diplomacy/ [01.10.2025].
14. Zane Šime. Why Active Listening is an Essential Ingredient in the EU's Science Diplomacy 'Laboratories'. ETHICS IN DIPLOMACY // USC Center on Public diplomacy magazine. SPRING/SUMMER 2020, Pp.19-22
15. Голубев Д. Наука и инновации в теориях международных отношений // Международные процессы. Том 13. Номер 2 (41). Апрель-июнь / 2015 сс. 66-80 DOI 10.17994/IT.2015.13.2.41.5
16. Горохов А., Виторович З., Макоева Д. Истоки научной дипломатии: Международная ассоциация академий, Пагуошские и Дартмутские конференции // Русская политология — Russıan polıtıcal scıence. 2022. № 1 (22) с.5-27
17. Гутенев М.Ю. Научная дипломатия в истории международных отношений // Теории и проблемы политических исследований. 2024. Том 13. № 7А. С. 89-100
18. Инновация (02.07.2024) URL: https://www.unisender.com/ru/glossary/innovacii-opredelenie-i-vidy/#anchor-1 [01.10.2025].
19. Краснова Г.А. Научная дипломатия в современном мире: учеб.-метод. материалы № 9/2021 / [Г.А.Краснова]; [вып. ред.: Е.О. Карпинская, И.А. Бочаров]; Российский совет по международным делам (РСМД). — М.: НП РСМД, 2021. — 48 с.
20. Кирсанова Е.Г. Инновации как политологическая категория // Вестн. Моск. ун-та. сер. 12. Политические науки. 2012. № 1. С.15-24
21. Павлюченко А.А. Методы изучения цифровой дипломатии в российских международно-политических исследованиях // Вестник Московского университета. Серия 25: Международные отношения и мировая политика. 2024. Т. 16. № 4. С. 225–250. DOI: 10.48015/2076-7404-2024-16-4-225-250
22. Романова М.Д. Научная дипломатия: измерения и практики // Управление наукой и наукометрия. 2017. №1 (23), стр. 38-52 URL: https://cyberleninka.ru/article/n/nauchnaya-diplomatiya-izmereniya-i-praktiki [01.10.2025].
23. Сунгуров А.Ю. Как возникают политические инновации : «фабрики мысли» и другие институты-медиаторы / А. Сунгуров. М.: Политическая энциклопедия, 2015. – 283 с.
24. Экономика инноваций https://books.econ.msu.ru/Economics-of-innovation/sect01/chap01/1.1/1.1.1/ [01.10.2025].

КАМАЛА РУИНТАН
Доцент Бакинского Славянского Университета,
Доктор философии по политическим наукам

НАУЧНАЯ ДИПЛОМАТИЯ И ИННОВАЦИОННЫЕ ОСОБЕННОСТИ ДИПЛОМАТИИ

Проблемы и возможности, существующие в наше время, практически напрямую связаны с развитием науки и техники. А решение проблем возможно только совместной деятельностью

государств и научных объединений. В связи с этим в XXI веке появилось понятие “научная дипломатия”. "Научная дипломатия" впервые была создана в академических кругах как международное научное сотрудничество и, долгое время служила средством развития двусторонних и многосторонних отношений. Позднее вопросы его применения расширились и вышли за рамки международного научного сотрудничества, прямо или косвенно стали служить дипломатическим целям. Понятия” научная дипломатия “и” инновационная дипломатия " тесно взаимосвязаны. Так как, с внедрением в дипломатические процессы науки и новых информационно-коммуникационных, а также других цифровых технологий дипломатия приобрела инновационный характер приобрела новые свойства, отличные от традиционных методов, сформировались ее новые креативные виды и инновационные методы. Инновационная дипломатия, в свою очередь, способствует развитию научной дипломатии и охватывает все ее измерения. Учитывая вышеизложенное, в статье рассматриваются понятия «научная дипломатия» и «инновационная дипломатия» и соотношение этих понятий с использованием историко-теоретических, трансдисциплинарных подходов и методов исследования и анализа.

Ключевые слова: научная дипломатия, инновации, инновационная дипломатия

KAMALA RUINTAN
Associate professor of Baku Slavic University,
Doctor on Philosophy in Political Science

SCIENTIFIC DIPLOMACY AND INNOVATIVE FEATURES OF DIPLOMACY

The problems and opportunities that exist today are closely linked to the development of science and technology. Solving these problems requires the joint efforts of states and scientific organizations. This is why the concept of “scientific diplomacy” emerged in the 21st century. Scientific diplomacy was first established in academic circles and for a long time meant international cooperation in the field of science. Later, the issues of its application expanded and went beyond international scientific cooperation and began to serve the goals of diplomacy directly or indirectly. The concepts of “scientific diplomacy” and “innovative diplomacy” are closely related. Since the introduction of science, new information and communication technologies, as well as other digital technologies into diplomatic processes, diplomacy has become innovative. It has acquired new properties that differ from traditional methods and new types and innovative methods of diplomacy have emerged. Innovative diplomacy, in turn, contributes to the development of scientific diplomacy and encompasses all its dimensions. Considering this, the article explores the concepts of “scientific diplomacy” and “innovative diplomacy”, as well as the relationship between these concepts, using historical, theoretical, and transdisciplinary approaches and research methods.

Keywords: science diplomacy, innovation, innovative diplomacy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 01 oktyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: s.e.ü.f.d. Ziya Səmədli, s.e.d. Adil Mirabdullayev.